

Əbdülhəmid əbu Süleyman

# XRİSTİANLIQ VƏ İSLAMA GÖRƏ ÇARMIXAÇƏKİLMƏ ETİQADI:

## *KONSTRUKTİV DİALOQA VƏ ORTAQ MƏXRƏCƏ DOĞRU*

Əbdülhəmid əbu Süleyman

# XRİSTİANLIQ VƏ İSLAMA GÖRƏ ÇARMIXAÇƏKİLMƏ ETİQADI:

## *KONSTRUKTİV DİALOQA VƏ ORTAQ MƏXRƏCƏ DOĞRU*

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

Bakı - 2017

© Beynəlxalq İslam Fikri İnstitutu, 2017
© "İdrak" İctimai Birliyi, 2017

The International Institute of Islamic Thought (IIIT)
P.O. Box 669, Herndon, VA 20172, USA
www.iiit.org

IIIT London Office
P.O. Box 126, Richmond, Surrey, TW9 2UD, UK
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Bakı ş., Bakı Universiteti MTK,
M. Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN: 978-9952-814-25-5

Tərcüməçi və redaktor, ön söz və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur

İbtidai və səthi biliklər əsasında diqqəti cəlb edən məsələlərdən biri də çarmıxaçəkmə etiqadı ətrafında islam və xristianlıq arasında meydana çıxmış kəskin fikir ayrılığıdır. Xristianlıqda çarmıxaçəkmə sevgi və fədakarlığın rəmzi olduğu halda islam bu etiqada yox deyir, onu zəlalət və iftira hesab edir. Adi müşahidəçi bəsit və təhrif edilmiş biliklərlə baş-başa qalır, bu amansız ədavətin mənasını yəqinliklə başa düşə bilmir.

Madam ki bu fikir ayrılığı islamla xristianlığın tarixi əlaqələrinin başlıca təzahürü kimi çıxış etmiş və hər iki din arasında meydana çıxmış ədavətin əsasını əmələ gətirmişdir, onda sözügedən problemə bir çoxları kimi ötəri və adi şəkildə toxunmaq düzgün olmazdı. Məsələ hərtərəfli şəkildə öyrənilməlidir. Başlanğıcda tədqiqatçı bu və ya digər tərəfi müdafiə etməyi qarşısına məqsəd qoymamalıdır. Nəzərə almaq lazımdır ki, çarmıxaçəkmə etiqadını rədd edən islam xristianlığı səmavi din olaraq təsdiqləyir, İsa Məsihi peyğəmbər qəbul edir, anası Həzrəti Məryəmə ehtiramla yanaşır.

Əgər biz universal mədəni Quran dünyagörüşü əsasında bu başlıca problemə – çarmıxaçəkmə etiqadı probleminə toxunmaq istəsək, məqsədimiz islam və xristianlıq arasında konstruktiv dialoq qurmaq olmalıdır. Çünki söhbət dünyanın iki böyük dinindən, iki böyük mədəniyyətindən gedir. Elə isə məlum problemi diqqətlə təhlil etmək, ciddi şəkildə öyrənmək lazımdır. Elə etmək lazımdır ki, bu iki din arasında qurulacaq konstruktiv dialoq baxımından sözügedən problemə obyektiv münasibət bildirilsin. Qeyd edək ki, məlum dini qarşıdurmanın əsas səbəbini hər iki tərəfdən bir çoxla-

rının məsələnin mahiyyətini səhv başa düşmələri, qarşı tərəfin mövzu ilə əlaqədar müddəalarının məzmununa fikir verməmələri təşkil edir. Nəticədə bir-birini başa düşmək, ünsiyyət yaratmaq çətinləşir. Bununla yanaşı, Kilsə hələ də islamın "legitimliy"ini qəbul etmək istəmir. Orta əsrlərdən etibarən bu qurum islama qarşıdurma və ədavət əsaslı münasibət bəsləyir.

Onu da bilməliyik ki, bu məsələdə (dialoq qurmada) əsas yük biz müsəlmanların çiyninə düşür. Bəli, sonuncu ümumdünya dininin davamçıları olan bizlərin! Çünki xristianlıqla konstruktiv dialoqa qapı açmaq və ünsiyyət yaratmaq lazımdır; həm də ona görə ki, islam lap əvvəldən çarmıxaçəkmə təlimini inkar etmişdir.

## *Dialoqu necə quraq?*

Bu məqsədlə atılacaq ilk addım dialoqu Quran nöqteyi-nəzəri əsasında qurmaqdır. Çünki islamda məlum problemi ilk dəfə gündəmə gətirən məhz Qurandır. Həmçinin Quranda xristianlarla aparılan dialoqu kompleks və hərtərəfli şəkildə öyrənmək, çarmıxaçəkmə etiqadı ilə əlaqəli Quran nöqteyi-nəzərini zaman və məkan baxımından təhlil etmək lazımdır.

Yeddinci əsrdən etibarən islamla xristianlıq arasında meydana çıxan və hələ də davam edən çəkişmə[1] özü ilə aşağıdakı sualları gətirmişdir:

[1] Dünyəvi Qərb (həm də Avropa) xristianlığa bir ideologiya olaraq inanmasa da, qərblilər özlərini aqnostik adlandırsalar da, öz imperialist və müstəmləkəçi siyasətinə vaxtı ilə xristianlığı alət etsələr də, islam haqqında saxta fikirlər yaratmaq və onu gözdən

Xristianlıqla islam arasındakı çəkişməyə Quranın bu dini çulğamış təhrifləri[2] təshih və tənqid edən məlumatlarla çıxış etməsi səbəb olmuşdurmu? Bu çəkişmə müsəlmanlar tərəfindən xristianlıq simvollarının təhqir edilməsi məqsədinimi daşıyır? Bu çəkişmədə müsəlmanlar xristianlıq rəmzlərini masqaraya qoyub təhqir edirlərmi? Yoxsa məsələ göründüyündən fərqlidir? Çəkişmədəki gərginlik və amansızlıq problemin mahiyyətinin doğru şəkildə öyrənilməsində tərəflərə təsir göstərmişdirmi?

Əgər Quranın məna dərinliyinə, məqsədlərinin aliliyinə, təqdimat üslubunun hərtərəfliliyinə, tolerant ruhuna, din və etiqad azadlığına dəstək verməsinə əminiksə, onda tərəflər Quranın təqdimat üslubuna yenidən nəzər salmalı, biz də onların Qurana münasibət metodikasını təshih etməliyik. Bunun üçün Qurandakı təqdimat üslubunun bütün tərəflərini dərindən öyrənmək lazım gələcəkdir. Belə olan təqdirdə, çarmıxaçəkmə etiqadına Quranın yox deməsinin səbəbini öyrənmiş olacağıq.

Əvvəla diqqət verilməlidir ki, çarmıxaçəkmə etiqadını inkar edən Qurani-Kərim xristianlığın banisinə ədavət bəsləmir; əksinə, bu müqəddəs kitabda Həzrəti İsanın şanı uca tutulur, o və anası təhrif və təhqir cəhdlərindən müdafiə olunur.

---

salmaq üçün şərqşünaslıq və missionerlik fəaliyyətinə dəstək versələr də və bunlar müsəlmanların haqlı qəzəbinə və Kilsə təlimlərinə həqarətlə baxmalarına səbəb olsa da, biz yuxarıdakı sualları özümüzə verməkdən imtina etməməliyik.

[2] İsa Məsihin Allah olduğunu, çarmıxa çəkildiyini iddia etmək və bu etiqaddan irəli gələn anlayışlar və s.

O da qəribədir ki, xristianlıq haqqında heç nə bilməyən bütpərəstlərin yaşadığı şəhərdə – Məkkədə nazil olan ilk ayələrdə xristianlığın banisi Həzrəti İsanın hələ uşaq ikən göstərdiyi möcüzələr təsdiqlənir; o, möcüzə göstərən, ölüləri diriltən peyğəmbər kimi təqdim edilir. Əgər islam xristianlığa düşmən olsaydı, Həzrəti İsaya aid möcüzələri yalan sayıb rədd edər, bu möcüzələrin baş verdiyini iddia edənləri yalançılıqda təqsirləndirərdi. Özü də həmin dövrdə və belə bir şəraitdə bunu etmək heç də çətin olmazdı.

Quranda İsa peyğəmbər və anası haqqında deyilir:

"(Ya Peyğəmbər!) Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən, Allah səni seçmiş, (eyiblərdən) təmizləmiş, (cəmi) aləmlərin (bütün dünyanın) qadınlarından üstün tutmuşdur" (Ali-İmran, 42);

"Mələklər dedilər: "Ya Məryəm! Həqiqətən, Allah Öz tərəfindən bir kəlmə ilə sənə müjdə verir. Onun adı Məryəm oğlu İsa əl-Məsihdir ki, dünyada və axirətdə şanı uca (şərəfli) və (Allaha) yaxın olanlardandır.

O, (həm) beşikdə ikən, (həm də) yaşa dolduqdan sonra insanlarla danışacaq və salehlərdən (xeyirli iş görən şəxslərdən) olacaqdır".

(Məryəm:) "Ey Rəbbim! Mənə bir insan əli toxunmadığı halda necə uşağım ola bilər?" – dedikdə, (Allah) buyurdu: "(Bəli) elədir, (lakin) Allah istədiyini yaradır. O, bir işin əmələ gəlməsini qərara aldıqda, ona ancaq "Ol!" deyər, o da (dərhal) olar.

(Allah) ona (İsaya) yazmağı, hikməti, Tövratı və İncili öyrədəcək.

Və onu İsrail övladına (yəhudilərə) peyğəmbər göndərəcək. (İsa onlara deyəcək:) "Mən, həqiqətən, Rəbbinizdən sizə möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzlədib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın izni ilə ölüləri dirildərəm. Mən evlərinizdə yediyiniz və yığıb saxladığınız şeyləri də sizə xəbər verərəm. Əgər möminsinizsə, bunda (söylədiklərimdə peyğəmbər olduğuna) bir dəlil vardır." (Ali-İmran, 45-49);

"Allaha (özü üçün) övlad götürmək yaraşmaz. O, pakdır, müqəddəsdir. O, hər hansı bir şeyi yaratmaq istədikdə ona yalnız: "Ol!" deyər, o da dərhal olar" (Məryəm, 35);

"Ey kitab əhli! Öz dininizdə həddi aşmayın! Allah barəsində yalnız haqqı deyin. Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrayıl vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur. Allaha və peyğəmbərlərinə iman gətirin. (Allah barəsində) "üçdür" deməyin. (Belə sözlərə) son qoyun ki, (bu) sizin üçün daha yaxşı olar. Həqiqətən, Allah tək bir tanrıdır. Övladı olmaqdan (bu bəşəri xüsusiyyətdən) kənardır. Göylərdə və yerdə nə varsa, (hamısı) Onundur. Allahın (sizə) vəkil olması bəs edər!

İsa əl-Məsih də, yaxın mələklər də Allahın qulu olmağı əsla özlərinə ar bilməzlər. Allah Ona ibadət etməyi özünə ar bilənlərin və təkəbbür göstərənlərin hamısını Öz hüzuruna toplayacaqdır!" (ən-Nisa, 171-172).

Həmçinin Quranda Kitab əhlinin əməlisalehləri, mömin və xeyirxah xristianlar təriflənir, məqamları uca tutulur:

“Onların hamısı eyni deyil. Kitab əhli içərisində düzgün (sabitqədəm) bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək Allahın ayələrini oxuyurlar.

Onlar Allaha, axirət gününə inanır, (insanlara) yaxşı işlər görməyi əmr edir, (onları) pis əməllərdən çəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər.

Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri inkar edilməz (mükafatsız qalmaz). Şübhəsiz ki, Allah müttəqi olanları tanıyır!” (Ali-İmran, 113-115);

“Sonra onların ardınca (Musa, İlyas, Davud, Süleyman, Yunis və başqa) peyğəmbərlərimizi yolladıq. (Onlardan sonra) Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq...” (əl-Hədid, 27);

“Kitab əhlinin zülm edənləri (sizinlə vuruşmaq istəyənləri) istisna olmaqla, onlarla ən gözəl tərzdə bəhsləşin! (Onlarla xoş rəftar edib ürəklərini ələ alın və özünüzdən incitməyin. Onların kobudluğuna nəzakətlə, qəzəblərinə soyuqqanlılıqla cavab verin. Nalayiq işlər gördükdə nəsihət edib düz yola çağırın. Yox, əgər üstünüzə silah qaldırsalar, siz də silahlanıb onlarla vuruşun və onları təslim olmağa, cizyə verməyə məcbur edin!) Və (onlarla söhbət etdikdə) belə deyin: “Biz həm özümüzə nazil olana (Qurana), həm də sizə nazil olana (Tövrata və İncilə) inanırıq. Bizim də Allahımız,

sizin də Allahınız birdir. Biz yalnız ona təslim olanlarıq!" (əl-Ənkəbut, 46).

Əgər niyyət tənə etmək, çəkişmək olsaydı, savadsız bütpərəst ərəblərə göndərilən Quranın xristianlığın möcüzələrlə əlaqəli iddialarını inkar etməsi daha məqsədəuyğun idi. Çünki keçmişdə baş vermiş möcüzələri öz gözləri ilə görməmiş şəxslərin onlara inanması asan məsələ deyildi. Bununla yanaşı, hətta İsa peyğəmbərin zamanında yaşamış və bu möcüzələrin şahidi olmuş bir çox yəhudi müxtəlif səbəblərdən onu və möcüzələrini inkar edib ittihamlar səsləndirmiş, ona və davamçılarına qarşı müxtəlif tədbirlərə əl atmışdılar.

Doğrudan da, qəribədir: islam, bir tərəfdən, xristianlığa aid edilən və inanılması çətin möcüzələri təsdiqləyir, digər tərəfdən isə xristianların çarmıxaçəkmə və tanrı İsa təlimlərini qəti surətdə rədd edir. Çarmıxaçəkmə təlimində göstərilir ki, Həzrəti İsa bəşəriyyətin atası Adəmin işlədiyi günaha görə özünü qurban vermişdir. Çünki Adəmin hərəkəti ucbatından bütün insanlar günaha batmışlar. Onların Allah tərəfindən bağışlanması üçün İsa özünü fəda etmişdir. Müasir xristianlıqda iddia edilir ki, Adəm Allahın qadağasını pozmaqla sonrakı nəsillərin də günah qazanmasına səbəb olmuşdur.

Ərəblərdən kimsə xristianlığa düşməncəsinə zərbə vurmaq istəsəydi, xristianların həmin dövrdə iddia etdikləri möcüzələri qınayıb, tənqid edərdi, – bu daha ağlabatan addım sayılardı. Həm də ki bu addım o dövrdə yəhudilər tərəfindən alqışlanacaqdı. Bununla da, Həzrəti İsanı, gətirdiyi dini, göstərdiyi möcüzələri inkar edən ilk din islam olmayacaqdı, çünki bunu ilk

dəfə yəhudilər etmişdilər. Ağıl və məntiq deyir ki, insafsızlıq, həsəd və ədavət üzündən xristianlığa öldürücü zərbə vurmaq istəyən kimsənin, bir tərəfdən, bu dinin əfv və bağışlanma ifadə edən çarmıxaçəkmə təlimini rədd etməsi, digər tərəfdən isə onun ağlabatmaz möcüzələrini təsdiqləməsi müdrik addım deyildir.

Nə Həzrəti Məhəmməd, nə də Qurani-Kərim hər bir ağıllı insanına məlum olan və Quranın əsaslandığı haqq, ədalət və mərhəmət dəyərlərinə zidd düşən bu səhv iddialardan xəbərsiz deyildilər; onlar, bir tərəfdən, xristianlığa aid möcüzələri təsdiqləmək, digər tərəfdən isə tutarlı səbəb olmadan çarmıxaçəkmə etiqadını inkar etməklə bu ziddiyyətli addımı heç vaxt atmazdılar.

"...onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!" (ət-Tövbə, 33);

"...doğru yola yönəldən kəs arxasınca gedilməyə daha çox layiqdir, yoxsa doğru yol göstərilmədikcə özü onu tapa bilməyən kəs? Sizə nə olub? Necə mühakimə yürüdürsünüz?" (Yunis, 35);

"Allah ...insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir" (ən-Nisa, 58);

"Kitabı və mizan-tərəzini (insanlar arasında ədalət tərəzisi olan şəriəti) haqq olaraq nazil edən Allahdır" (əş-Şura, 17);

"...de: "Sizə salam olsun! Rəbbiniz Özü-Özünə rəhmli olmağı yazmışdır..." (əl-Ənam, 54);

"Səni də (Ya rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik" (əl-Ənbiya, 107).

Quranın münasibət bildirdiyi bu və ya digər məsələ adi məsələ ola bilməz. Buraya həm də çarmıxaçəkmə təlimi də daxildir. İslamın bu təlimə fərqli şəkildə münasibət bildirmişdir. Nəticədə mübahisələr meydana çıxmış, müsəlmanlar və xristianlar bir-biri ilə çəkişmiş, ədavət və bədgümanlıq özünü büruzə vermişdir.

Səthi yanaşma nəticəsində xristianlar iddia edirlər ki, çarmıxaçəkmə etiqadını inkar edən islam, əslində, bu etiqadın ifadə etdiyi mənanı – fədakarlığı, sevgi və tolerantlığı rədd edir. Xristianlığa görə, İsanın çarmıxa çəkilməklə göstərdiyi fədakarlıq İlk Günahın bağışlanmasına səbəb olacaqdır. İlk günah Adəmin təqsirindən baş vermiş, Allahı qəzəbləndirmişdir və hər bir insanın bu günahın məsuliyyətini daşıyır. Təbii ki, çarmıxaçəkmə etiqadına qazandırılan bu mənanın memarı Kilsə və ruhanilər sinfidir.

Təbii ki, Qurani-Kərim haqqında müəyyən məlumatı olan şəxsin bu ilahi kitabda fədakarlıq, sevgi və tolerantlığın rədd edildiyini iddia etməsi mümkün deyildir.

Problemi dərk etmək üçün xristianlıq, İsa peyğəmbər və çarmıxaçəkmə etiqadı ilə əlaqəli Quran ayələrini hərtərəfli şəkildə öyrənmək lazımdır. Həmçinin ayələrin məzmunu və təqdimat üslubunu kompleks şəkildə öyrənmək imkan verəcəkdir ki, problemə islamın həqiqi münasibəti müəyyən edilsin. Nəticədə biz "israiliyyat" ədəbiyyatından, yəhudiliyin xristianlığı rədd etməsi faktından "ilham alan" ənənəvi yanaşmalardan xilas olacağıq.

Aşkar məsələdir ki, islamda xristianlıq səmavi din olaraq qəbul edilir, İsa peyğəmbər və anasının məqamı

uca tutulur. Qurani-Kərim xristianlığa ehtiramla yanaşır, ondakı məhəbbət, mərhəmət və rəhmdillik dəyərlərini yüksək qiymətləndirir.

Elə isə münaqişə, səhv fəhm və bədgümanlıq nədən irəli gəlir? Bilməliyik ki, islam çarmıxaçəkmə, yəni çarmıxda ölmə etiqadına yox desə də, çarmıxaçəkmə hadisəsinin baş verdiyini inkar etmir. İslama görə, öldürmək məqsədilə İsa peyğəmbər çarmıxa çəkilmişdir. Amma Quranda göstərilir ki, o, çarmıxda ölməmişdir. Deməli, Quranda Həzrəti İsanın çarmıxa çəkilmədiyi iddia olunmur. Quran İsa peyğəmbərin çarmıxa çəkildiyini qəbul edir. Bu müqəddəs kitabda inkar edilən şey xristianların İsa peyğəmbərin çarmıxda ölməsinə dair iddialarıdır. Həmçinin Quran bildirir ki, xristianların iddia etdikləri kimi fədakarlıq[3] baş verməmişdir. Elə isə bu yerdə mühüm olanı çarmıxaçəkmə hadisəsi deyildir; əksinə, mühüm olanı budur ki, xristianlar İsa peyğəmbərin çarmıxda öldürülüb qurban edilməsini günah işləmiş Adəm və bəşəriyyəti Allahın qəzəbindən xilas edən hərəkət hesab edirlər. Yəni, Həzrəti İsanın çarmıxa çəkilməsi Allahı razı salmış, Onun insanları bağışlamasına səbəb olmuşdur, – bax bunu islam rədd edir. Çünki belə bir şeyin baş verməsi mümkün deyildir. Çarmıxaçəkmə etiqadı uydurmadır, dolaşıq məzmuna sahibdir.

Xristianlıq – Kilsə iddia edir ki, insanlar İsa Məsihi çarmıxa çəkərək öldürmüşlər. Əgər belədirsə, daha

---

[3] **Fədakarlıq**: xristian inancına görə, İsa peyğəmbər bütün bəşəriyyətin günahları bağışlansın deyə özünü qurban vermişdir – ***tərcüməçinin qeydi.***

dəhşətli ikinci günahı[4] birinci günahı bağışladan vasitə hesab etmək məntiqə sığışmır. Xristianlar ya özlərini bilməzliyə vurur, ya da doğrudan da, onların bəsirət gözləri bağlanmışdır; əks halda, "Allah və oğlu"nun öldürülməsini cinayət qəbul edər, onu "bağışlanma və ilahi razılığın səbəbi" adlandırmazdılar.

## *Quranda çarmıxaçəkmə etiqadı nə üçün rədd edilir?*

Çarmıxaçəkmə etiqadını islamın nə üçün inkar etdiyini öyrənsək, problemi daha yaxşı başa düşəcəyik. Səmavi dinlərdə, o cümlədən islamda ədalət anlayışının yerinə nəzər salsaq, görəcəyik ki, faciəvi cinayəti mükafatlandırma ideyası[5] Quranın şahidlik və ədalət məfhumlarına ziddir. Bu ideya ilahi ədalətlə, səmavi dinlərin məqsədi və insanları haqqa istiqamətləndirmə üslubu ilə üst-üstə düşmür.

Cinayətə və ya günaha görə mükafatlandırmaq yolu ilə əfv etmək ədalət prinsipinə ziddir. Əgər belə deyilsə, onda nə üçün xristianlar ilk günahı işləyən Adəmə Allahın qəzəbinin tutduğunu, üstəlik, bu qəzəbin onun övladlarını da çulğadığını iddia edirlər?!

---

[4] İsa peyğəmbərin çarmıxa çəkərək öldürülməsi nəzərdə tutulur. Yəni "ilk günah"ı – Adəmin qadağan edilmiş ağaca yaxınlaşmaqla yol verdiyi səhvi Allahın bağışlaması üçün daha böyük günah işləmək, yəni İsa peyğəmbəri öldürməkmi lazımdır?! – ***tərcüməçinin qeydi.***

[5] Bu ideya çarmıxaçəkmə etiqadının əsasını əmələ gətirir.

Aşağıda göstərilmiş yollarla bağışlanmaq ədalət prinsipinə uyğundur:

1. Allah cəzalandırır və bağışlayır;

2. Günahkar şəxs itaət göstərməklə, yaxşı əməllər etməklə Allaha yaxınlaşır və bağışlanır;

3. Günahkar tövbə edir, bağışlanma diləyir və bağışlanır;

4. Ən məşəqqətli vəziyyətlərdə Allah lütf göstərir, comərdlik edib günahkarı bağışlayır. Bu o halda baş verir ki, haqlı tərəf təşəbbüs göstərib müqəssiri əfv edir və cani də bunu ondan xahiş etmir. Və ya bu vəziyyətdə hər hansı bir maraq güdülmür.

Günah və cinayətin mükafatının bağışlanma olmağı iddiası ədalət prinsipinə ziddir; insanları haqqa istiqamətləndirmədə, yol göstərmədə ağlabatan və məqbul vasitə sayıla bilməz.

Əgər Quranda Həzrəti İsanın çarmıxda ölmədiyi, əksinə, bunun insanların gözünə göründüyü bildirilirsə, deməli, müqəddəs kəlam ədalətin mahiyyətinə zidd düşən bir anlayışı rədd edir. Bu üzdən Quranda təkidlə bildirilir ki, Həzrəti İsa ölməyib, yaxud çarmıxa çəkilərək öldürülməyib; əksinə, Allah Təala öz peyğəmbərini yəhudilərin hiyləsindən qorumuşdur:

"...Sən İsrail oğullarına açıq-aşkar möcüzələr gətirdiyin zaman Mən (onların bəlasını) səndən dəf etmişdim (səni öldürmək istədikdə onlara mane olmuşdum). Onlardan küfrə batanlar isə belə demişdilər: "Bu, açıq-aydın sehrdən başqa bir şey deyildir!" (əl-Maidə, 110);

"...Həqiqətdə onu (İsanı) öldürməmişdilər.

Xeyr, Allah onu Öz dərgahına qaldırmışdır. Şübhəsiz, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir!" (ən-Nisa, 157-158).

Deməli, çarmıxaçəkmə mövzusunda Kilsə xristianlığı ilə islam arasında meydana çıxan fikir ayrılığının xeyir və tolerantlıq prinsipləri, yaxud bu iki dinlə əlaqəsi yoxdur. Fikir ayrılıqları maddi faktlar və mənalarının müəyyən edilməsi, müraciət və dərs çıxarma üslubu ətrafında yaranıb.

Heç kəs islamın xristianlığı bir səmavi din olaraq qəbul etmədiyini iddia edə bilməz. İslam xristianlığı Allahın dərgahından gələn pak din olaraq qəbul edir, ondakı sevgi, tolerantlıq və əfv anlayışlarını təsdiqləyir.

"...Biz onu insanlar üçün (qüdrətimizə dəlalət edən) bir möcüzə, (sənə və möminlərə isə) dərgahımızdan bir mərhəmət olaraq edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!" (Məryəm, 21);

"Ayələrimizə iman gətirənlər yanına gəldikdə onlara de: "Sizə salam olsun! Rəbbiniz Özü-Özünə rəhmli olmağı yazmışdır" (əl-Ənam, 54);

"Səni də (Ya rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik" (əl-Ənbiya, 107);

"...Məryəm oğlu İsanı göndərib ona İncil verdik. Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq..." (əl-Hədid, 27);

"Sonra da iman gətirən və bir-birinə səbir tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır!" (əl-Bələd, 17);

“(Onların lənətə düçar olmalarının bir səbəbi də:) ”Biz, Allahın elçisi Məryəm oğlu İsa əl-Məsihi öldürdük”, – demələridir. Halbuki onlar İsanı nə öldürdülər, nə də çarmıxa çəkdilər. Onlarda yalnız belə bir təsəvvür yarandı. Bu haqlı ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar. Həqiqətdə onu (İsanı) öldürməmişdilər” (ən-Nisa, 157)[6].

---

[6] Bəzi qarelərin bu ayəni necə başa düşdüklərini izah etmək məsələsində mən təfsirçi alimlərdən fərqli düşünürəm. Odur ki bu ayə haqqında müfəssəl izahat verməyi özümə lazım bildim. Belə ki mən ayənin məzmunu və əlaqədar bütün ayələri nəzərə almaqla problemə münasibət bildirmişəm. İsa Məsihin öldürülməsi və çarmıxa çəkilməsi ilə əlaqəli Quran mətnlərini ərəb dilinin qaydaları çərçivəsində izah etmək çox mühümdür.

Ərəb dili qrammatikasına görə, məlum ayənin mətnindəki əvəzlik – əksi zəruri olmadıqca – onunla əlaqəli ən yaxın sözə aiddir. Ayədə deyilir ki, Həzrəti İsanın düşmənləri onu nə öldürmüş, nə də çarmıxa çəkmişlər. Fikir verin: ayə İsa Məsihin öldürülməsini inkar etməklə başlanır, sonra deyilir ki, “onu çarmıxa çəkmədilər”. Ayənin mətnindən məlum olur ki, düşmənləri Həzrəti İsanı çarmıxa çəkməklə öldürmək istəmişlər. Bu səbəbdən ayədə ən dəhşətli qətl və işgəncə vasitələrindən çarmıxın adı çəkilir.

Ayənin davamında deyilir: “Həqiqətdə isə onu öldürməmişdilər”. Ayənin məzmununu diqqətlə öyrənsək, görəcəyik ki, çarmıxaçəkmə deyil, öldürülmə inkar olunur. Fikir verin: ayədə həmçinin “həqiqətdə isə” sözü vardır. Bu o deməkdir ki, onlar İsanı öldürdüklərini zənn etmişdilər. Əslində bu, doğru olmayıb, zənn, güman idi. Ayə düşmənlərinin İsanı öldürüb-öldürmədikləri məsələsində ixtilafa düşdüklərini göstərməklə bunu təsdiqləyir: “Bu haqda ixtilafda olanlar onun (şəxsən öldürülməsi) barəsində, əlbəttə, şəkk-şübhə içərisindədirlər. Onların buna dair heç bir

məlumatı yoxdur. Onlar ancaq zənnə qapılırlar" (ən-Nisa, 157). Yəni, onların bu barədə bildikləri gümandan ibarət olub, həqiqət deyildir. Əgər biz mövzunu araşdırsaq, görəcəyik ki, onların İsa Məsihin ölümü haqqında dedikləri ziddiyyətlidir, gümandan ibarətdir.

Bu yerdə sual yaranır: ayədəki "Lakin onlara belə göründü" sözü nə deməkdir? Ərəb dilinin qaydalarına görə, əvəzliklərin aid olduğu nitq hissəsi düzgün müəyyən edilməli, ayədə mövcud olmayan fikir əsasında ayənin məzmunu izah edilməməlidir. Nəticədə aşağıdakı qənaətə gəlmişəm: İsa Məsihi çarmıxa çəkərək öldürmək istəyənlərə elə gəlmişdi ki, o, çarmıxda ölüb. Həqiqətdə isə o ölməmişdi. Məlum hadisənin meydana gəldiyi şəraitdə, İsa Məsihin şəxsiyyətinin statusu səbəbi ilə belə bir gümanın yaranmağı ağlabatandır.

Həmçinin mən Quranın heç bir ayəsində İsanın yerinə səhvən öldürüldüyü iddia edilən Yəhuda və ya başqa şəxsə işarə edən məlumata rast gəlməmişəm. Belə bir iddia ancaq yəhudi və xristianlıq rəvayətlərində mövcuddur.

Təəssüf ki, keçmişdə və indi böyük müfəssirlərin çoxu (Qurtubi, İbn Kəsir, "Mənar" təfsiri və s.) Quran qissələrini başa düşmək, keçmiş peyğəmbərlərin həyatını öyrənmək üçün yəhudi və xristianlıq rəvayətlərinə müraciət etmişlər. Halbuki Quran və Peyğəmbərə görə, bu məsələdə Quranın dedikləri ilə kifayətlənmək, əsas diqqəti hekayələrdəki məqsədə, dərs və ibrətlərə yönəltmək lazımdır. Həm Quran, həm də Peyğəmbər Kitab əhlinin rəvayətlərinə, xüsusən İsa peyğəmbərə və anasına ədavətin bəslənildiyi yəhudi qissələrinə (***israiliyyat***) müraciət etməyi qadağan etmişlər. Allah Təala Quran haqqında buyurur: "...Biz Kitabda (Quranda) heç bir şeyi nəzərdən qaçırmadıq (əskiltmədik)..." (əl-Ənam, 38); "Bu, ayələri hikmət sahibi, (hər şeydən) agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir kitabdır" (Hud, 1); "...Biz Quranı sənə hər şeyi izah etmək üçün... nazil etdik!" (ən-Nəhl, 89); "Nə öncə, nə də sonra batil ona yol tapa bilməz..." (Fussilət,

azmış yəhudilərə göndərilməsinə kimsə etiraz et-

---

43). Bu xüsusiyyətlərə baxmayaraq, Allah başqa ayədə buyurur: "(Ya Rəsulum!) Sənə Kitabı (Quranı) nazil edən Odur. Onun (Kitabın) bir hissəsi (Quranın əslini, əsasını təşkil edən) möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabeh ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabeh ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahdan və elmdə qüvvətli olanlardan) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: " Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", – deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər" (Ali-İmran, 7).

Əgər biz "mütəşabeh" sözünü "aydın olmayan" kimi izah etsək, onda bilərəkdən və ya bilməyərəkdən iddia etmiş olarıq ki, Quranın ayələri bir-birinə ziddir. Məsələn, bir ayədə deyilir ki, "Bu, ayələri hikmət sahibi, (hər şeydən) agah olan (Allah) tərəfindən təsbit olunmuş, sonra da müfəssəl izah edilmiş bir kitabdır", başqa bir ayədə isə göstərilir ki, onun bəzi ayələri açıq-aydın olmayıb, "məğzi bəlli deyildir". (Hud, 1).

Quranın ayələrini düşünərək oxuyan heç bir ağıllı müsəlman belə bir iddia ilə çıxış etməz. Əksini deyən müsəlman isə dediyinin fərqində olmayıb, səhvə yol verir.

Ayələrə kompleks yanaşan şəxs Qurandakı "uhkimət" və "muhkəmət" sözləri arasında fərq qoymalıdır. "Uhkimət" sözü "sağlam quruluş, struktur, forma" deməkdir. Sağlam struktura malik Quranda heç bir qüsur, əyri-üyrülük yoxdur. "Muhkəmət" sözünün mənası dəqiqləşdirilərsə, "mütəşabeh" ayələrin həm də "uhkimət" ayələri olmağı faktı inkar edilməyəcəkdir.

Fikrimcə, doğru olanı budur ki, Quranın "möhkəm" ayələri islamın bəşəriyyətə təqdim etdiyi dəyərlər, prinsiplər, məqsəd və qanunları təsdiqləyən ayələridir. Məsələn, buraya böyük günahların, fırıldaqçılığın, yalanın haram edilməsi və s. prinsiplər, Allahın insanı yer üzünün varisi elan etməsi və digər dəyərlər və s. daxildir. Belə ayələrə tabe olmaq lazımdır, mübahisəyə yer yoxdur.

mir. Qurani-Kərim də bu faktı təsdiqləyir. Belə bir

---

"Mütəşabeh" ayələrə gəlincə, yuxarıdakı ayənin kontekstindən məlum olur ki, bu ayələr əvvəlki xalqlar və mədəniyyətlərin, peyğəmbərlərin həyatı ilə, buradan çıxarılacaq dərslərlə əlaqəli ayələrdir.

Beləliklə, bu ayələrin mövzusu digər xalqların, xüsusilə Kitab əhlinin sahib olduğu (rəvayət və əhvalatlarla), ələlxüsus sonralar "israiliyyat" adı ilə tanınan yəhudi hekayələri ilə oxşardır.

Deməli, mütəşabehlik digər xalqlardan, əhvalatları və rəvayətlərindən bəhs edən "möhkəm" ayələrin mövzusu ilə əlaqəli məsələdir. Söhbət o əhvalatlardan gedir ki, miflər və əsatirlərə çevrilmiş, təhrif olunmuşdur.

Bu səbəbdən yuxarıdakı ayədə ayələrin məzmunundan, təqdim etdiyi ibrət və dərslərdən kənara çıxmamaq, təhrif edilmiş əhvalatlar və əsatirlərə istinad edərək yozumlara yol vermək haqqında xəbərdarlıq edilir. Edilir ki, xəbis niyyətli, xəstə qəlbli insanlara fitnə-fəsad çıxarmaq üçün qapı açılmasın. Çünki söhbət keçmiş tarixlə əlaqəli, həqiqi məzmununun öyrənilməsi qeyri-mümkün olan hekayələrdən gedir. Bu hekayələrin həqiqi məzmununu həmin xalqlar və peyğəmbərlər ölüb getdikləri üçün öyrənmək mümkün deyildir. Yəhudi və xristianlıq kitablarında bu əhvalatlarla əlaqəli çoxlu uydurma, ziddiyyətli və təhrif olunmuş hekayələr mövcuddur. Nəticədə bu dinlərin davamçıları dövrümüzdə dini dəyərlərdən imtina etmiş, materialist-pozitivist və liberal dünyagörüşü formasını mənimsəmişlər.

Təəssüf ki, müfəssirlərin çoxu bu cür mənbələrə və yəhudi qissələrinə müraciət etmişlər. Təhrif olunmuş məlumatların ümmətin mədəni-elmi həyatına vurduğu öldürücü zərbə və bunun səbəb olduğu tənəzzül və gerilik hər kəsə məlumdur.

Bu səbəbdən sağlam islam metodologiyası əsas götürülməlidir. Yəni, ayələrin işarə etmədiyi faktlar əsasında Quran mətnini təfsir etmək doğru deyildir.

Fikrimcə, istifadə etdiyim metod çarmıxaçəkmə etiqadının əsaslandırılmasına xidmət edən təhrif və gümanları aradan qaldıra bilər. Bu metod, eyni vaxtda, ədalət və bəşəri məsuliyyətin

dinin ədalət və məsuliyyəti inkar etməsi, cinayətə icazə verməsi və ya cinayətə görə mükafatlandırması, yəhudiləri peyğəmbərləri öldürməyə həvəsləndirməsi mümkün deyildir.

Xristianlarla müsəlmanların mübahisəsi Quranın çarmıxaçəkmə etiqadına baxışını əks etdirmir. İslam bu etiqadı ona görə rədd edir ki, onda Kilsə davamçılarının nəzərdən qaçırıb görə bilmədikləri məzmun və mahiyyət gizlidir.

Həm xristianlar, həm də müsəlmanlar məqsəd və mahiyyətdə eyni mövqedən çıxış edirlər. Fikir ayrılığı müraciət üslubundakı səhvlərdən irəli gəlir. Elə isə dialoqda hər iki tərəfin məqsədi, təqdimat üslubu və metodları diqqətlə nəzərə alınmalıdır. Həmçinin yaxşı niyyət və məqsəddən, ortaq iman prinsipindən irəli gələn sevgi və təqdir münasibətləri yaxşılaşdırılmalıdır. Bütün bunlar ona görədir ki, metod və üslubda nə lazımdırsa o da təshih edilsin, tərəflərin xeyrə və haqqa can atmada istifadə etdikləri üsulların fayda verməsi üçün qarşılarına qoyduqları məqsədlər həyata keçsin. Elə isə doğrunu bir kənara atıb, yanlışda israr etmək nə ağıla, nə də məntiqə uyğundur.

Çarmıxaçəkmə etiqadının ayrı-ayrı elementlərini Quran nöqteyi-nəzərindən redaktə etmək və nə məqsədlə bunun edilməsini göstərmək, bəlkə də, fəhm əngəllərinin

---

özüllərini atır, təqsiri olmayanı cəzalandırmır, cinayətkarı da cinayətinə görə mükafatlandırmır.

Ümid edirəm ki, yuxarıdakı ayəni izah edərkən nəzərdə tutduğum şey oxucuya aydındır. Fikrimcə, yeni metod sayəsində biz Quranı yenidən reallığa tətbiq edə, ümməti inkişaf etdirib, insanlığa xidmət göstərə bilərik.

aşılmasına, konstruktiv dialoqa geniş imkanların açılmasına, bir tərəfin digər tərəfin müraciət üslubunu başa düşməsinə, bu üslubda gizlənmiş xeyirxah məqsədlərin üzə çıxarılmasına gətirib çıxaracaqdır. Həmçinin bu, islam və xristianlıq arasında təqdimat üslubu və metodlarının, etiqad əsaslarının bitkin və uyğun şəkildə təqdim edilməsinə qapılar aça bilər.

İslam məntiqinə görə, xristianlığın çarmıxaçəkmə etiqadı problemli məsələdir. Çünki bu etiqadda Allaha ortaq qoşmaq vardır. İlahi Kamillik əvəzinə troitsa[7] anlayışını qəbul etmək Allahın vəhdaniyyəti prinsipinin üstündən xətt çəkir. Belə ki troitsa inancında Allahın bəxş etdiyi möcüzələr səbəbi ilə Həzrəti İsa – Tanrı, Tanrı isə İsa Məsihin şəxsində insan, nəhayət, mütləq və mücərrəd varlıq – Ata olaraq nəzərdən keçirilir. Qəribə və əcaib tanrı anlayışı!

İslam məntiqinə görə, çarmıxaçəkmə inancı həm də məsuliyyət prinsipinə zidd olduğu üçün problemlidir. İslamda məsuliyyət başlıca prinsiplərdən olub, ədalət prinsipi ilə əlahiddə götürülür. İslam məntiqində deyilir ki, hər bir insan etdiyi əməllərə görə məsuliyyət daşıyır; insanın dəyəri rəngi və ya irqi mənsubiyyəti ilə deyil, əməlləri ilə ölçülür. Çarmıxaçəkmə inancı isə çarmıxaçəkmə cinayətinə bəraət qazandırır, məsuliyyət prinsipini heçə sayır, ataların günahını və bu günahın məsuliyyətini oğullara yükləyir. Bu o deməkdir ki, sözügedən inanc cinayət və cəza arasındakı obyektiv

---

[7] **Troitsa (və ya: üç üqnüm, üçlü tanrı):** xristian dininə görə üç sifətdə (ipostasda): Ata, Oğul və Müqəddəs ruhda birləşmiş tanrı – ***tərcüməçinin qeydi.***

münasibəti nəzərə almır, əziz olanı sevməyi ifadə edən fədakarlıq anlayışını şərə, cinayət və işgəncəyə qeyri-insani və anlaşılmaz məntiqlə bəraət qazandıran anlayış kimi gözdən keçirir.

Çarmıxaçəkmə inancındakı ziddiyyətlərə baxmayaraq, indiki dövrdə islam bu inancı təshih etməyə çağırarkən tolerantlıq, əfv və sevgi dəyərlərinin aliliyi məsələsində xristianlarla eyni mövqedən çıxış edir. Bunun səbəbi həmin inancın insan fitrətinin əsas prinsipləri ilə, sağlam məntiqlə tərs düşən anlayışları özündə ehtiva etməsidir.

## *Mahiyyətdə fikir ayrılığı yoxdur*

Digər səmavi dinlər kimi həm islamın, həm də xristianlığın başlıca prinsipləri eynidir. İslam tanrının ilahiliyini, əvvəlki peyğəmbərlərin möcüzələrini, günah, tolerantlıq və bağışlama anlayışlarını qəbul edir. Amma çarmıxaçəkmə etiqadını təshih etmək məqsədilə bu anlayışlar ilahi vəhdaniyyət (***tövhid***) əsasında nəzərdən keçirir, sevgi, tolerantlıq və əfv məsələləri ədalət və məsuliyyət prinsipləri ilə əlahiddə götürülür.

Tablo daha aydın olsun deyə Quranın bu məsələlərə baxışını xülasə etmək lazımdır. Yəni, islamda bu problemlər tövhid və fitrət prinsipləri əsasında necə həll olunur?

İslam xristianlıqda olduğu kimi Tanrının (Allahın) ilahiliyini qəbul edir, amma bu məsələdə tövhid prinsipini əsas götürür, Onu maddi və bəşəri xüsusiyyətlərdən uzaq Mütləq Varlıq olaraq nəzərdən keçirir.

"(Ya Peyğəmbər! Allahın zatı və sifətləri haqqında səndən soruşan müşriklərə) de: "(Mənim rəbbim olan) O Allah birdir (heç bir şəriki yoxdur);

Allah (heç kəsə, heç nəyə) möhtac deyildir! (Hamı Ona möhtacdır; O, əzəlidir, əbədidir!)

O, nə doğmuş, nə də doğulmuşdur! (Allah Özünə heç bir övlad götürməmişdir!)

Onun heç bir tayı-bərabəri (bənzəri) də yoxdur!" (əl-İxlas, 1-4);

"...Ona bənzər heç bir şey yoxdur. O, (hər şeyi) eşidəndir, (hər şeyi) görəndir!" (əş-Şura, 11);

"(Ya rəsulum!) Söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! ( O kəlmə budur:) "Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi (özümüzə) rəbb qəbul etməyək!" Əgər onlar yenə də üz döndərərlərsə, o zaman (onlara) deyin: "İndi şahid olun ki, biz, həqiqətən, müsəlmanlarıq (Allaha təslim olanlarıq)!" (Ali-İmran, 64);

"...Allaha və peyğəmbərlərinə iman gətirin. (Allah barəsində) "üçdür" deməyin. (Belə sözlərə) son qoyun ki, (bu) sizin üçün daha yaxşı olar..." (ən-Nisa, 171).

İslamda deyilir ki, yaratma gücü ancaq Allaha məxsusdur, hər kəs Ondan güc alır; möcüzələr Allahın gücünü ifadə edir. Bu məsələdə hər kəs və hər şey eynidir. Peyğəmbərlərin möcüzələri Allahın möcüzələridir və peyğəmbərlər başqa insanlar kimi Allahın yer üzündə qoyduğu qanunauyğunluqlara tabedirlər. Göstərdiyi möcüzələr Həzrəti İsanın insan olmağını dəyişdirmir. Çünki bu möcüzələr Allahdandır və Həzrəti İsa Al-

lahın qüdrətini ifadə edən "Ruhülqüds" tərəfindən dəstəklənmişdir.

"Allah yanında İsa da (İsanın atasız dünyaya gəlmiş də) Adəm kimidir. Allah onu (Adəmi) torpaqdan yaratdı. Sonra ona: "(Bəşər) ol!" – dedi, o da oldu" (Ali-İmran, 59);

"...Həqiqətən, Məryəm oğlu İsa əl-Məsih ancaq Allahın peyğəmbəri, (Cəbrail vasitəsilə) Məryəmə çatdırdığı bir söz və Onun tərəfindən olan bir ruhdur..." (ən-Nisa, 171);

"...Məryəm oğlu İsaya aşkar möcüzələr (dəlillər) bəxş etdik və onu müqəddəs ruhla (Cəbraillə və ya ismiəzəmlə) qüvvətləndirdik..." (əl-Bəqərə, 87);

"...(İsa onlara deyəcək:) "Mən, həqiqətən, Rəbbinizdən sizə möcüzə gətirmişəm. Sizin üçün palçıqdan quşa bənzər bir surət düzlədib ona üfürərəm, o da Allahın izni ilə quş olar. Anadangəlmə korları, cüzam xəstəliyinə tutulanları sağaldar və Allahın izni ilə ölüləri dirildərəm..." (Ali-İmran, 49);

"Məryəm oğlunu (İsanı) və (bakirə) anasını (qüdrətimizdən yaranmış) bir möcüzə etdik..." (əl-Muminun, 50);

"Allah Məryəm oğlu Məsihdir", - deyənlər, şübhəsiz ki, kafir oldular..." (əl-Maidə, 17);

"Allah üçün (üç ilahinin) üçüncüsüdür!" – deyənlər, əlbəttə, kafir olmuşlar..." (əl-Maidə, 73);

"Bu sizin rəbbiniz, hər şeyin xaliqi olan Allahdır. Ondan başqa heç bir tanrı yoxudur! Siz necə (aldanılıb haqdan) döndərilirsiniz? (Ondan necə dönürsünüz?)" (Ğafir, 62).

İslama görə, insan imtahan məqsədilə yaradılmışdır. Hər kəsin aqibəti etdiyi əməllərə müvafiq olacaqdır. Hər kəs öz əməlinə görə məsuliyyət daşıyır: hər qoyun öz ayağından asılacaqdır.

"...Heç bir günahkar başqasının günahını daşımaz..." (əl-Ənam, 164);

"(Ya rəsulum!) Sənin rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) " Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.

(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını (isimlərini) öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!" – dedi.

Onlar: "Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən", – dedilər.

(Sonra) O: "Ey Adəm, bunların (kainatda mövcud olan əşyanın) adlarını onlara bildir!" – dedi. (Adəm) onlara (mələklərə) bunların adlarını xəbər verdikdə (Allah): "Mən sizə, göylərin və yerin gözə görünməyən sirlərini və sizin gizlində - aşkarda nə etdiyinizi bilirəm, söyləmədimmi?" – buyurdu.

(Ya Peyğəmbər!) Biz mələklərə: "Adəmə səcdə edin! – dedikdə İblisdən başqa (hamısı) səcdə etdi. (Yal-

nız) o, lovğalanaraq (səcdə etməkdən) imtina etdi və kafirlərdən oldu.

(Sonra) Biz (Adəmə) dedik: "Ey Adəm, sən zövcənlə (Həvva ilə) Cənnətdə qal və hər ikiniz oradakı meyvələrdən, istədiyiniz kimi, bol-bol yeyin, yalnız bu ağaca (buğdaya) yaxın gəlməyin! Yoxsa (özünüzə) zülm edənlərdən olarsınız".

(Lakin) Şeytan onları azdırıb (buğdadan yedizdirməklə nemətlər içində) olduqları yerdən uzaqlaşdırdı. Biz də (Adəmə, Həvvaya və Şeytana): "Bir-birinizə düşmən kəsilərək (buradan kənar olub yer üzünə) enin! Yerdə sizin üçün müəyyən vaxta qədər (ömrünüzün axırınadək) sığınacaq və yaşayış (dolanacaq) vasitələri var", – dedik.

(Nəhayət) Adəm rəbbindən (bəzi xüsusi) kəlmələr öyrənərək (Həvva ilə birlikdə o kəlmələr vasitəsilə) tövbə etdi. Doğrudan da, O (Allah) tövbələri qəbul edəndir, mərhəmətlidir.

Biz (onlara) dedik: "Hamınız buradan (yer üzünə) enin! Mənim tərəfimdən sizə bir hidayət (peyğəmbər və Kitab) gəldiyi zaman Mənim hidayətimə tabe olanlara (axirət əzabından) heç bir qorxu yoxdur və onlar (qiyamətdə) qəmgin olmazlar".

Kafir olaraq ayələrimizi təkzib edənlər isə cəhənnəmlikdirlər, onlar orada (atəş içində) əbədi qalacaqlar" (əl-Bəqərə, 30-39);

"Beləliklə, (Şeytan) onları batil sözlərlə aldatdı (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbələrdən aşağı endirdi). (Adəm və Həvva) ağacın meyvəsindən daddıqda ayıb yerləri (gözlərinə) göründü. Onlar Cənnət

(ağaclarının) yarpaqlarından (dərib) ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağacı (ağaca yaxınlaşmağı) qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşməninizdir, deməmişdimmi?"

(Adəm və Həvva) "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" – dedilər" (əl-Əraf, 22-23);

"Biz də belə dedik: "Ey Adəm! Bu (İblis) sənin də, övrətinin də düşmənidir. (Ehtiyatlı olun ki) sizi (tovlayıb) Cənnətdən çıxartmasın, yoxsa (ey Adəm!) məşəqqətə düşüb bədbəxt olarsan! (Gecə-gündüz əziyyət çəkib öz əlinin zəhməti ilə yaşamağa məcbur olarsan!)

Həqiqətən, sən orada (Cənnətdə) acmaq nədir, çılpaq olmaq nədir bilməzsən!" (Taha, 117-118);

"(Adəm və Həvva) ondan (həmin ağacın meyvəsindən) yedilər və dərhal hər ikisinin ayıb yerləri göründü. Onlar (lüt bədənlərinə) cənnət ağaclarının yarpaqlarından yapışdırmağa başladılar. Beləliklə, Adəm Rəbbinin əmrindən çıxdı, amma mətləbinə yetmədi. (Adəm Rəbbinə asi oldu və yoldan çıxdı. Qadağan olunmuş ağacın meyvəsindən yemək heç də onu Cənnətdə əbədi qalmaq arzusuna çatdırmadı, əksinə, Həvva ilə birlikdə yer üzünə endirildi).

Sonra Rəbbi (tövbə etdirməklə) onu seçdi (Özünə yaxınlaşdırdı), tövbəsini qəbul buyurdu və doğru yola müvəffəq etdi.

(Allah Adəmə və Həvvaya) belə buyurdu: "Bir-birinizə (siz İblisə və nəslinə, İblis də sizə və nəslinizə) düşmən kəsilərək hamınız oradan (Cənnətdən yerə) enin. Məndən sizə doğru yolu göstərən bir rəhbər (kitab, yaxud peyğəmbər) gəldiyi zaman hər kəs Mənim haqq yolumu tutub getsə, nə (dünyada) yolunu azar, nə də (axirətdə) bədbəxt olar!

Hər kəs Mənim öyüd-nəsihətimdən (Qurandan) üz döndərsə, güzəranı daralar (yaxud qəbir evində şiddətli əzaba düçar olar) və Biz qiyamət günü onu məhşərə kor olaraq gətirərik!" (Taha, 121-124);

"Kim (dünyada) zərrə qədər yaxşı iş görmüşdürsə, onu (onun xeyrini) görəcəkdir (mükafatını alacaqdır).

Kim də zərrə qədər pis iş görmüşdürsə, onu (onun zərərini) görəcəkdir (cəzasını çəkəcəkdir)" (əz-Zəlzələ, 7-8);

"Hər kəs öz əməlinin girovudur! (Hərə öz əməlinin əvəzini alacaqdır!)" (əl-Müddəssir, 38);

"Qorxun o gündən ki, (Allahın izni və köməyi olmayınca) heç kəs heç kəsin karına gələ bilməsin (heç kəs heç kəsə öz əməlindən bir şey verə bilməsin), heç kəsdən şəfaət (bu və ya digər şəxsin günahlarının bağışlanması barəsində xahiş, iltimas) qəbul olunmasın, heç kəsdən (günahlarının təmizlənib əzabdan xilas olması üçün) fidyə (əvəz) alınmasın və onlara (günahkarlara) heç bir kömək göstərilə bilməsin!" (əl-Bəqərə, 48);

"Allaha tərəf qaytarılacağınız gündən qorxun! (O gün) hər kəsə gördüyü əməlin əvəzi veriləcək və (haqsız yerə) zülm olunmayacaqdır!" (əl-Bəqərə, 281);

“De: “Allah hər şeyin rəbbi olduğu halda, heç mən Ondan başqa rəbmi istərəm? “Hər kəsin qazandığı günah ancaq özünə aiddir. Heç bir günahkar başqasının günahını daşımaz. Axır dönüşünüz rəbbinizədir. O zaman (Allah) sizə aranızda ixtilaf doğuran məsələlər barəsində xəbər verəcəkdir” (əl-Ənam, 164);

“Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər. Heç bir günahkar başqasının günahını daşımaz. (Hərə öz günahına cavabdehdir). Biz, peyğəmbər göndərməmiş (heç bir ümmətə) əzab verməmərik!” (əl-İsra, 15).

Ədalət və cavabdehlik mərhəmət və bağışlama anlayışları ilə ziddiyyət əmələ gətirmir. Onların hər biri insan təbiətinin əsasını əmələ gətirir, onun xarakterini yaxşılaşdırıb paklayan vasitələr sayılır. Məsuliyyət daşıdığı üçün insan oğlu günaha yol verdikdə tövbə edir, Allahdan bağışlanma diləyir. Məsuliyyət şəfqət və yaxşı işlərə səbəb olur.

“...onlara de: “Sizə salam olsun! Rəbbiniz Özü-Özünə rəhmli olmağı yazmışdır (bəndələrinə qarşı rəhmli olmağı əzəldən Özü üçün müəyyən etmişdir) ki, sizlərdən hər kəs pis iş görsə, sonra tövbə edib düzəlsə (Allah onun günahından keçər). Şübhəsiz ki, Allah bağışlayandır, rəhm edəndir!” (əl-Ənam, 54);

“(Cəbrayıl) dedi: “Elədir, lakin Rəbbin buyurdu ki, bu Mənim üçün asandır. Biz onu insanlar üçün (qüdrətimizə dəlalət edən) bir möcüzə, (sənə və möminlərə isə) dərgahımızdan bir mərhəmət olaraq edəcəyik. Bu, əzəldən təqdir olunmuş bir hökmdür!” (Məryəm, 21);

“...Onun ardınca gedənlərin qəlblərində bir-birinə şəfqət, mərhəmət oyatdıq...” (əl-Hədid, 27);

“Həqiqətən, bunda da (Quranda da Allaha) ibadət edən bir ümmətdən ötrü (kifayət qədər) moizə (öyüd-nəsihət) vardır.

Səni də (Ya rəsulum!) aləmlərə (bütün insanlara və cinlərə) ancaq bir rəhmət olaraq göndərdik” (əl-Ənbiya, 106-107);

“Sonra da iman gətirən və bir-birinə səbr tövsiyə edən, mərhəmət tövsiyə edən kimsələrdən olmaqdır!” (əl-Bələd, 17);

“O müttəqilər ki, bir günah iş gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini (gördükləri işin pis olduğunu) bildikdə (tövbədən sonra) bir daha ona qayıtmazlar.

Onların mükafatı öz Rəbbi tərəfindən bağışlanmaq və (ağacları) altından çaylar axan cənnətlərdir ki, orada əbədi qalacaqlar. Yaxşı işlər görənlərin mükafatı nə gözəldir!” (Ali-İmran, 135-136);

“(Ya Peyğəmbər! Mənim adımdan qullarıma) de: “Ey Mənim (günah törətməklə) özlərinə zülm etməkdə həddi aşmış bəndələrim! Allahın rəhmindən ümidsiz olmayın. Allah (tövbə etdikdə) bütün günahları bağışlayar. Həqiqətən, O bağışlayandır, rəhm edəndir!” (əz-Zumər, 53).

Deyilənlərdən məlum olur ki, hər iki din eyni mənbədən başlanğıcını götürür, əsas prinsip və məqsədləri birdir. Amma əvvəlki səmavi dinlərdən

fərqli olaraq, islamın müqəddəs kitabı təhrifə məruz qalmamışdır. Bu səbəbdən Quran dəqiq və rabitəli məzmunu, aydın üslubu ilə seçilir. Məhz bu xüsusiyyət islamla xristianlıq, həmçinin digər səmavi dinlər arasında müsbət münasibətlərin səbəbi kimi nəzərə alınmalıdır. Belə olarsa, məqsəd birliyinə ehtiram göstəriləcək, ortaqlıq təqdir ediləcək, tolerantlıq və xoş dialoq inkişaf etdiriləcək, nifrət və ədavət hissinin qarşısı alınacaq, ali məqsədlər uğrunda, haqq və xeyir naminə bir araya gəlmək mümkün olacaqdır.

# Mündəricat

Dialoqu necə quraq? . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 4
Quranda çarmıxaçəkmə etiqadı nə üçün rədd edilir? . . . . 13
Mahiyyətdə fikir ayrılığı yoxdur . . . . . . . . . . . . . . . . . . 22



*Əbdülhəmid Əhməd əbu Süleyman*

- Əbdülhəmid Əhməd əbu Süleyman 1936-cı ildə Məkkə şəhərində anadan olmuşdur.
- Orta məktəbi bitirdikdən sonra, 1959-cu ildə Qahirə universitetinin İqtisadiyyat fakültəsinə qəbul olunmuşdur.
- 1973-cü ildə ABŞ-ın Pensilvaniya universitetində "Beynəlxalq münasibətlər" ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.
- Bir müddət Səudiyyə Ərəbistanında, Kral Məhəmməd ibn Səud adına Mədinə İslam Universitetində fakültə dekanı vəzifəsində işləmişdir.
- 1988-1999-cu illərdə Malayziya Beynəlxalq İslam Universitetinin rektoru olmuşdur.
- 1999-cu ildən ABŞ-dakı Beynəlxalq İslam Fikri İnstitutunun direktorudur.
- ABŞ və Kanada Müsəlman Tələbələri İttifaqının yaradıcılarından biridir.
- Professor Əbdülhəmid Əhməd əbu Süleyman sosiologiya, hüquq və islam düşüncəsində novatorluq üzrə çoxsaylı kitabların, monoqrafiya və məqalələrin müəllifidir.

Əsərləri:
- İslam iqtisadiyyatı nəzəriyyəsi: fəlsəfi və müasir metodlar
- Müsəlmanın düşüncə böhranı
- İslam maarifçiliyi: layihələr və nailiyyətlər
- İslam düşüncəsində metod problemi
- Müsəlman ailənin biblioqrafik məlumat kitabı
- Müsəlmanın iradə və mənəviyyat böhranı
- Müsəlman dünyasında ali təhsil sisteminin canlandırılması
- İki şəriət prizmasından insana baxış və s.

İDRAK